# Yenilməz Azərbaycan əsgəri

## Qüdrətli ölkənin qalib ordusu qürurumuz, iftixarımızdır

**Azərbaycan xalqı tarix boyu vətən torpaqlarını qorumaq üçün mərdliklə vuruşub, qəhrəmanlıq salnaməsinə qürur gətirici səhifələr yazıb. 30 il davam edən Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə həlli, eyni zamanda ərazi bütövlüyümüzün bərpası da taleyüklü bir vəzifə idi. Hər zaman bütün dünyaya humanistlik nümayiş etdirən Azərbaycan münaqişənin sülh yolu ilə həllinə nail olmağa çalışsa da, bu, baş tutmadı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev daim vurğulayırdı ki, "bizim ən böyük kompromisimiz sülh danışıqlarına sadiq qalmağımızdır. Lakin biz bu imkanlardan istifadə etməklə yeni şərait yaratmalıyıq". O, müharibəni ən son variant kimi görürdü.**



Ermənistanın danışıqlar prosesini sarsıdan təhrikçi açıqlamaları və əməlləri, iyul ayında dövlət sərhədlərinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat, qoşunların təmas xəttinə cəmləşdirilməsi, terror əməllərini törətmək üçün diversiya qruplarını göndərməsi onun növbəti çirkin niyyətindən xəbər verirdi. 2020-ci il sentyabr ayında BMT Baş Assambleyasının 75-ci sessiyası zamanı Azərbaycan Prezidenti beynəlxalq ictimaiyyəti Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar etmişdi. Təəssüf ki, buna məhəl qoyulmadı və 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı Vətən müharibəsini qaçılmaz etdi, Ali Baş Komandanın əmri ilə Azərbaycanın Silahlı Qüvvələri zəfər yürüşünə başladı. Dərindən düşünülmüş hərbi strategiya, döyüş əməliyyatlarının məharətlə keçirilməsi, vəziyyəti nəzarətdə saxlamağa qadir olan döyüş taktikası, Ali Baş Komandanın prosesi yüksək peşəkarlıqla idarə etməsi qələbəyə gedən yolumuzu daha da tezləşdirdi. Ermənistan pulsuz əldə etdiyi texnika və hərbi sursatlar hesabına təminatlı orduya malik olsa da silahlı qüvvələrimizin onlara qarşı istifadə etdiyi pilotsuz uçuş aparatları (PUA), "Bayraqtar TB2" zərbə pilotsuz təyyarələrindən və "Zərbə" dronlarından qaçışları mümkün olmadı. Azərbaycan ordusu öz gücünü göstərdi.

Son onilliklərdə böyük inkişaf yolu keçən Azərbaycan ordusunun maddi-texniki bazasının gücləndirilməsi, hərbçilərin peşə hazırlığının müasir standartlara uyğun aparılması ərazi bütövlüyümüzün təmin olunmasını şərtləndirdi. Ordumuz yeni nəsil müharibə texnikasını uğurla tətbiq etməklə, "smart" silahlardan real döyüş meydanında yararlanmaqla dünya hərb elminə yeni əsrin innovativ döyüş üsulunu tətbiq etdi. Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsi dünyanın hərbi mərkəzləri, aparıcı ölkələrin hərbi strukturları, eləcə də müvafiq təşkilatlar tərəfindən diqqətlə öyrənilir, müasir hərb tarixində uğurlu döyüş taktikası kimi qəbul edilir.

İkinci Qarabağ müharibəsi tarixə Azərbaycanın şanlı qələbəsi kimi yazıldı. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi Silahlı Qüvvələrimizin müəllifi olduğu bu Zəfərin qazanılmasında xüsusi rolu olan xalq-ordu birliyi daha bir imtahandan uğurla çıxdı. İllərdən bəri göstərilən siyasi qətiyyətin, möhkəm iradənin məntiqi nəticəsi olan bu Zəfər yolunda atılan addımlar bəhrəsini verdi. Bir neçə il bundan əvvəl: "Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir, Şuşada, Xankəndidə Azərbaycanın dövlət bayrağı qaldırılmalıdır və gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Göyçə, Zəngəzur mahallarıdır. Vaxt gələcək biz orada da yaşayacağıq. Mən buna inanıram, buna əminəm. Buna nail olmaq üçün hər birimiz öz səylərimizi qoymalıyıq, hər birimiz öz işimizlə o müqəddəs günü yaxınlaşdırmalıyıq" - söyləyən Prezident İlham Əliyevin müdafiə qüdrətimizin möhkəmlənməsi istiqamətində davam etdirdiyi siyasət özünü doğrultdu.

XXI əsrin müharibəsini aparan Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsinin, peşəkarlığının, ən çətin istehkamları keçmək məharətinin dünyanın aparıcı hərbi məktəblərində öyrənilməsi Azərbaycan əsgərinin qüruru, məhvə məhkum Ermənistanın "yenilməz ordu" mifinin dağıdılması idi. Paytaxtımızda təşkil olunmuş Hərbi Qənimətlər Parkında düşmənin nümayiş etdirilən dağıdılmış və qənimət kimi götürülmüş texnikası bir daha bizim gücümüzü, düşmənin məğlubiyyətini göstərir. Qələbənin səbəbkarı isə 44 gündə birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirən Azərbaycan xalqı, Milli ordumuzun hər bir əsgəri, zabitidir. Azərbaycanın hərbi, diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük sevinc payı sülh və sabitlik əsasında gələcəyi qurmaq uğrunda cəsarətli addımlar atan xalqımıza məxsusdur. Qələbəmiz üçün torpaqlarımızın bütövlüyü naminə qurban gedən şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Müharibə başa çatandan sonra Prezident İlham Əliyevin sərəncamları ilə Milli Qəhrəman adını alanlar, orden və medallarla təltif olunanlar bu mükafatlara layiqdirlər. Müharibədə yaralananlara yüksək səviyyədə dövlət qayğısı göstərilir. Bu da onların halal haqqıdır.

2021-ci ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü ərəfəsində Azərbaycan ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və şərəflə, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olundular. Dövlət başçısının imzaladığı sərəncamlarla 11365 nəfər "Füzulinin azad olunmasına görə", 11831 nəfər "Xocavəndin azad olunmasına görə", 3435 nəfər "Zəngilanın azad olunmasına görə", 731 nəfər "Vətən uğrunda", 616 nəfər "İgidliyə görə", 2893 nəfər "Cəsur döyüşçü", 786 nəfər "Döyüşdə fərqlənməyə görə", 1743 nəfər isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib. Prezidentin digər sərəncamı ilə 2 nəfər "Qarabağ", 28 hərbçi "Azərbaycan Bayrağı", 13 nəfər 3-cü dərəcəli "Rəşadət", 7 nəfər isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenlərinə layiq görülüblər. Ümumilikdə isə təltif olunanların sayı 76 min 349 nəfərdir.

Həmin günlərdə Azərbaycan Prezidenti işğaldan azad olunmuş ərazilərdə Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında sərəncam imzaladı.

Bakıda keçirilən "Dəmir yumruq" adlı Zəfər paradı, nümayiş etdirilən ən müasir hərbi texnika, nizami ordu göstərdi ki, müharibədə beşinci nəsil hərbi texnikanın tətbiqi ilə düşmənə ölümcül zərbə vuran Azərbaycanın qarşısında dura biləcək qüvvə yoxdur: "Bu tarixi missiyanı siz icra etmisiniz - Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib. Əlbəttə ki, bizim güclü ordumuz var, texniki təchizat da yüksək səviyyədədir. Bütün dünya gördü ki, biz hansı texniki imkanlardan istifadə edirik. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəferi xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir" sözləri ilə xalqımızın vətənpərvərlik ruhunun Qələbənin qazanılmasında böyük rolu olduğunu dəfələrlə vurğulayan Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycan xalqı bu tarixi anı yaşadığı üçün xoşbəxtdir.

Vətən müharibəsi Azərbaycan Ordusunda sağlam mənəvi-psixoloji durumun, ruh yüksəkliyinin, özünəinam və güclü vətənpərvərlik hissinin hökm sürdüyünü təsdiqlədi. Eyni zamanda, Azərbaycan xalqının öz qüdrətli dövlətinin ordusuna qətiyyətli və birmənalı dəstək verməsi şanlı tarixi qələbənin əldə olunmasında müstəsna rol oynadı. Böyük fəxrlə deyə bilərik ki, bu gün harada yaşamasından asılı olmayaraq hər bir vətənpərvər azərbaycanlı özünü Ali Baş Komandanın əsgəri, vətənin müdafiəçisi kimi görür, dövlətə və ordumuza prinsipial dəstək verir. Bütün bunlar isə haqq mübarizəsi aparan Azərbaycanın qüdrətini artırır.

Qüdrətli Vətənin qalib ordusu! Bu sözlər hər kəsdə qürur doğurur. Xalqın dövlətinə, sarsılmaz, yenilməz ordusuna, onun Ali Baş Komandanına inamını artırır. Əminik ki, bundan sonra da belə olacaq Azərbaycanın qalib ordusu öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək və yeni nailiyyətlərə, zəfərlərə imza atacaq, bir mahnıda deyildiyi kimi:

*Marş irəli, Azərbaycan əsgəri*
*Dönməz geri, Azərbaycan əsgəri!*

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 1 aprel.- S.7.